# Böyük xilaskar



## Təhsil müəssisələrində Milli Qurtuluş Günü qeyd olunub

Azərbaycan Texniki Universitetinin (AzTU) Heydər Əliyev Mərkəzində 15 İyun - Milli Qurtuluş Gününə həsr olunan tədbir keçirilib. Tədbirdə AzTU-nun rektoru Vilayət Vəliyev, Yeni Azərbaycan Partiyası (YAP) Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev, millət vəkilləri, universitetin müəllim və tələbələri iştirak edib.

Əvvəlcə universitetin foyesində ulu öndər Heydər Əliyevin büstünün önünə gül dəstələri düzülüb.

Daha sonra ulu öndər Heydər Əliyevin və torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarından keçən Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Azərbaycanın Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən AzTU-nun rektoru Vilayət Vəliyev bildirib ki, Azərbaycan xalqının gələcək həyatını müəyyən edən mühüm başlanğıcların əsası 15 İyun - Milli Qurtuluş Günü ilə qoyulub. Bu əlamətdar gün ictimai, siyasi və tarixi baxımından çox böyük əhəmiyyətə malikdir. Rektor qeyd edib ki, 90-cı illərin əvvəllərində müstəqilliyini yenicə bərpa etmiş ölkədə hökm sürən hərc-mərclik, getdikcə gərginləşən siyasi, iqtisadi və sosial vəziyyət, torpaqlarımızın erməni silahlı qüvvələri tərəfindən işğalı Azərbaycanı bu bəlalardan xilas edə biləcək liderin hakimiyyətə gəlməsini zəruri edirdi. Bütün xalq bilirdi ki, həmin dövrdə ölkəni bu ağır və dözülməz vəziyyətdən xilas edəcək şəxsiyyət ulu öndər Heydər Əliyevdir. Məhz belə bir məqamda Heydər Əliyev xalqın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıtdı və ölkəmizi ağır bəlalardan xilas etdi. Ulu öndərin hakimiyyətə gəlişi ilə ölkə vətəndaş müharibəsindən və parçalanma təhlükəsindən xilas oldu. Ümummilli lider hakimiyyətə qayıdışı ilə Azərbaycanın müstəqilliyini qorudu, ölkəmizin bütün sahələrdə inkişafında, dünyada nüfuzunun artmasında mühüm və həlledici rol oynadı. Rektor qeyd edib ki, bu gün Ulu Öndərin siyasi xəttini layiqincə davam etdirən Ali Baş Komandan, Prezident İlham Əliyevin iradəsi və qətiyyəti sayəsində Azərbaycan dünyanın ən nüfuzlu və güclü ölkələri sırasındadır.

Daha sonra çıxış edən millət vəkilləri Elnur Allahverdiyev və Ramin Məmmədov, YAP Yasamal rayon təşkilatının sədri Bəxtiyar Nəbiyev, YAP-ın AzTU üzrə Ərazi Partiya Təşkilatının sədri Həbib Mirzəyev qurtuluş gününün tarixi əhəmiyyəti barədə fikirlərini bildiriblər. Qeyd olunub ki, artıq iki ildir Azərbaycan xalqı Milli Qurtuluş Gününü Ali Baş Komandan, Prezident İlham Əliyevin siyasi iradəsi nəticəsində qalib xalq kimi qeyd edir. 44 günlük Vətən müharibəsində qazanılan şanlı qələbə ilə Prezident İlham Əliyev ata vəsiyyətini yerinə yetirdi. O da vurğulanıb ki, Heydər Əliyevin siyasi irsi uzun illər tarixçilər və politoloqların araşdırma mövzusu olacaq.

Tədbirin sonunda AzTU-nun bir qrup əməkdaşı və tələbəsinə YAP-ın üzvlük vəsiqəsi təqdim edilib. Tələbələr adından çıxış edən AzTU-nun İqtisadiyyat və idarəetmə fakültəsinin birinci kurs tələbəsi Günay Ağabəyova YAP sıralarına qəbul olunduqları üçün partiya rəhbərliyinə təşəkkür edib.

***

15 İyun — Milli Qurtuluş Gününə həsr olunmuş tədbirlər keçirilib. Belə ki, Bakı Gənclər Mərkəzində Sabunçu Rayon İcra Hakimiyyətinin təşəbbüsü, Bakı Gənclər Mərkəzi, Yeni Azərbaycan Partiyasının Sabunçu rayon təşkilatı və 67 nömrəli tam orta məktəbin təşkilatçılığı ilə “Xarıbülbül” musiqi festivalı təşkil edilib.

Tədbirdə Sabunçu Rayon İcra Hakimiyyətinin başçısı Adil Vəliyev, millət vəkili Əliabbas Salahzadə, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini Hüseyn Əsgərov, Bakı Şəhər İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi, humanitar məsələlər və dini qurumlarla iş şöbəsinin müdiri Elmin İmanov, Sabunçu Rayon İcra Hakimiyyəti başçısının müavinləri, ziyalılar, 67 nömrəli tam orta məktəbin pedaqoji kollektivi, valideyn və şagirdlər iştirak ediblər.

Tədbir Dövlət Himninin səsləndirilməsi və Vətən uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Tədbirdə çıxış edənlər tariximizə qızıl hərflərlə yazılmış 15 İyun—Milli Qurtuluş Gününün Azərbaycan xalqı üçün sadəcə təqvim bayramı deyil, böyük ictimai-siyasi və tarixi əhəmiyyətə malik bir gün olduğunu vurğulayıblar. Azərbaycan tarixində mühüm rol oynayan bu günün tarixi barədə ətraflı məlumat verən çıxışçılar ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsilə ölkəmizdə vətəndaş müharibəsinin, dövlətçiliyin məhv olmasının və ölkənin parçalanmasının qarşısının alındığını bildiriblər.

Tədbir məktəblilərin ifasında musiqi nömrələri, ədəbi-bədii kompozisiyalar və rəqslərlə davam edib.

***

“Azərbaycan səninlədir-sənsiz deyil!” X Yaradıcılıq Festivalı qaliblərinin “15 İyun - Milli Qurtuluş Günü”nə həsr olunmuş bayram konserti keçirilib.

Tədbirdə Binəqədi Rayon İcra Hakimiyyətinin başçısı Elxan Allahverdiyev, Azərbaycan Respublikasının Gənclər və İdman nazirinin müavini Fərhad Hacıyev, YAP Binəqədi rayon təşkilatının sədri Vüsar İsmayılov, millət vəkilləri Madər Musayev, Eldar İbrahimov, Kəmaləddin Qafarov, Cavid Osmanov, Arzu Nağıyev, Bakı Şəhər İcra Hakimiyyəti başçısı Aparatının İctimai-siyasi, humanitar məsələlər və dini qurumlarla iş şöbəsinin müdiri Elmin İmanov, Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov, Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəisi İbrahim Əliyev, Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdir müavini Hüseyn Əsgərov, şəhid ailələrinin üzvləri, qazilər, rayon icra hakimiyyəti başçısının müavinləri, Aparatının əməkdaşları, hüquq-mühafizə orqanlarının rəhbərləri, ümumitəhsil, məktəbəqədər və incəsənət məktəblərinin rəhbərləri və müəllimləri, rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Festival Azərbaycan Respublikasının müstəqilliyinin qorunub saxlanmasında, möhkəmlənməsində, inkişafında müstəsna rol oynayan, daim xalqına arxalanan, xalqın xilaskarı ulu öndər Heydər Əliyevin, Vətən uğrunda, torpaqlarımızın bütövlüyü uğrunda canından keçərək şəhidlik zirvəsinə yüksəlmiş qəhrəmanlarımızın əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi və Dövlət Himninin səslənməsindən sonra açıq elan olunub.

Festivalda münsiflər heyətinin seçim turları nəticəsində musiqi, ifaçılıq, rəqs, rəssamlıq və bədii qiraət üzrə 280-dən çox məktəbli arasından 145 nəfər qalib seçilib. Qalib iştirakçılar müxtəlif nominasiyalar üzrə ifalarını nümayiş etdiriblər.

Çıxışlarda ulu öndər Heydər Əliyev kimi fenomenal bir şəxsiyyətin Azərbaycanda hakimiyyətə gəlməsinin tarixi hadisə olduğu vurğulanıb. Tariximizə Milli Qurtuluş Günü kimi daxil olmuş 1993-cü ilin 15 iyun tarixini onu dərindən dərk edənlər, Vətənini, xalqını sevən, həmin çətin, ağrılı günlərin dəhşətlərini yaşayan, hadisələri gözləri ilə görən insanlar üçün - Azərbaycan xalqı üçün çox əziz tarix, əsl qurtuluş tarixi olduğu qeyd edilib.